# OĞUZ ELİNİN DİNİ TƏRBİYƏSİ



Biz bu gündən bu yolda - İslam amalı uğrunda döyüşlərə hazır olmalıyıq! Hər birimiz yadda saxlamalıyıq ki, İslamı müdafiə etməklə biz həm də Qalın Oğuzu, Böyük Türküstanın görən gözü olan Azər - Azəri yurdunu - Azərbaycanı müdafiə etmiş oluruq... (13)

- İslam uğrunda müqəddəs döyüşlər bir gün səngiyəcək, Dünyanın çoxu Həzrəti Məhəmməd peyğəmbərin bayrağı altına keçəcək. İslamçıların ön cərgəsində dayandığımız üçün gələcək nəsillərimiz bizlərə rəhmətlər, xeyir-dualar oxuyacaqlar. Biz - bütün oğuztürk elləri, biz - azərlər - alpanlar yalnız bir Dinin İslamın müqəddəs yaşıl bayrağı altında vuruşa və yaşaya bilərik. Biz dünyanın, zamanın yeni ahası ilə nəfəs almağa hazır olmalıyıq. Başqa yolu yoxdur...

Oğuz elində ilk İslamı qəbul edib müsəlman olan 4 nəfər - 1) Qamğan oğlu Xanlar xanı, Qalın Oğuzun padşahı xan Bayandır, 2) Şeyxlislam adını Peyğəmbərdən alan Şeyx Dədə Qorqud, 3) «Varıban peyğəbərin yüzini görən, qəlübəni Oğuzda səhabəsi olan, acığı tutanda bıqlarından qan çıqan bığı qanlı Bükdüz Əmən, 4) Xanlar xanı Ulaşoğlu Salur Qazan (13; D -62).

Dədə Qorqud digər bir şerində İslamın ən önəmli, ən can yandıran təbliğatçısı kimi özünü biruzə verir. O yazır:

*«Tanrı dostı, din sərvəri Məhəmməd görkli!*
*Məhəmmədin sağ yanında namaz qılan*
*Əbubəkr siddiq görkli!*
*Yazılıb-düzilib gökdən endi Tənri elmi Quran görkli.*
*Ol Quranı yazdı-düzdi, üləmalər ögrənincə göydi-biçdi*
*Alimlər sərvəri Osman Uffan oğlı görkli.*
*Alçaq yerdə yapılubdır Tənri evi Məkkə görkli.*
*Ol Məkkəyə saq varsa, əsən gəlsə,*
*sidqi «bitün hacı görgli»*

**Oğuzların qədim inamlarına dair qısa səyahət.**

Yeri gəlmişkən, dastanın məzmunundan, dastanda baş vermiş hadisələrdən başa düşülür ki, İslamdan qabaq Oğuzlar samanlıq dövrü keçirmişlər. Ancaq İslamdan qabaq dastan boyları folklor yaradıcılığında şifahi mövcud olmuşdur. Bəlkə də yazılı olubdur, ancaq əldə məlumat yoxdur. Qədim türklər, o cümlədən oğuzlar təbiətə, təbiət hadisələrinə, heyvanlara, hər şeydən öncə oda, suya, göy cisimlərinə sitayiş edirdilər.

Oğuzların qədim inamlarının ən əsası su idi. Dastanda görürük, Qazan xan suyun gücünə, qüdrətinə görə, məişətdə əhəmiyyətinə görə öyür:

*«Çığnam - çığnam qayalardan çıqan su!*
*Ağac gəmiləri oynadan su!*
*Həsən ilə Hüseynin həsrəti su!*
*Bağ və bostanın ziynəti su!*
*Ayişə ilə Fatimənin nigahı su!*
*Şahbaz atlar içdigi su!*
*Qızıl dəvələr gəlib keçəki su!*
*Ağ qoyunlar gəlib çevrəsində yattuğı su!*

Oğuzların qədim inamlarından biri də qurdlar (canavar) idi. Bu inamı oğuzların ulu mənşəi olan əski türklərdən mirasdır. Bu mülahizə Türkmənistanın Altın (aşağı alt) təpədə arxeoloji qazıntılar nəticəsində tapılan qızıldan qurd başı e.ə. III minlikdə yaşayan türk tayfalarının inamı olduğu sübut oluna bilər.

«Dədə Qorqud» oğuzlarında qurdun müqəddəs tutulması sübut edir ki, İslamdan əvvəl dini təsəvvürlərin qalığıdır. Bunu Qazan bəyin qurda olan münasibətində görürük.

*«Qaranqu axşam olanda güni toğan!*
*Qar ilə yağmur yağanda ər kibi turan!*
*Qaraquc atları kişnəşdirən!*
*Qızıl dəvə görduqində bozlaşdıran!*
*Arqasını urıb, bərk ağılın, ardın sökən!*
*Qarma-bukəc simüzin alub tutan!*
*Qanlu quyruq üzüb çap-çap yudan!*
*Avazı qaba köpəklərə qoğa salan!*
*Çaqmaqluca çobanları dünlə yügürdən!*
*Ordumın xəbərin bilürmisin, degil, mana!*
*Qara başım qurban olsun, qurdum sana!*
dedi.

Oğuz gövdəli və hündür ağaclara, qayalara, mağaralara səcdə etmişlər. Həmin adı çəkilən təbiət nemətlərinin dibində qurban kəsmək, nəzir vermək halları olmuş, həmin nemətlər haqqında əfsanələr yaranmışdır. Bu inamlar oğuzların xələfləri hazırda da davam etdirir.

**I. 3. Oğuz elinin ilk müsəlmanları və rəhbərləri haqqında qısa arayış**

1. «Kitabi-Dədə Qorqud» abidəsinin bir saylı qəhrəmanı kimi İslamın ilk inancı, ilk Şeyxi, ilk təbliğatçısı, Oğuz elinin ağsaqqalı, məsləhətçisi və ilk Ozanı, ilk topuz tutan Dədə-Qorquddur. O İslam dininin ali rütbəli Şeyxidir.

2. Xanlar xanı Qamğan oğlu Bayındır KDQ-də əsas və birinci Sima hesab edilir. Ölkəni qanunçuluq əsasında hərbi diktatura üsulu ilə idarə edir. Bayındır xan dövlətin möhkəmləndirilməsinin, talanmasının, gəlinqızların əsir aparılmamasının naminə dövlət quruculuğu işlərini təşkil edir.

Bayındır xan ildə bir dəfə ulu toy məclisi düzəldir. Oğuz bəylərini qonaq çağırır. Toya hədiyyələrlə gələn bəylər Bayındır xan tərəfindən hədiyyələrlə yola salınır. O, ölkənin istedadlı Padşahıdır və onu ciddi tələblər əsasında idarə edir.

3. Oğuz məmləkətində ikinci rəhbər xadim Xanlar xanı Ulaş oğlu Salur Qazandır. O baş nazir, baş sərkərdə kimi dövləti idarə edir. O sərbəst olaraq bir təhlükəli və önəmli məsələlərdə Bayındır xanla məsləhətləşmədən Vətənin, xalqın naminə boylarda iştirak edir, sərbəst hərəkət edir.

Qazan xan Bayındır xanın kürəkənidir. O da Bayandır xan kimi böyük məclislər düzəldir. Hətta ildə bir dəfə Qalın Oğuz (İç Oğuz və Dış Oğuz) bəylərinin düzəltdiyi toya dəvət edir, qadını Burla xatının əlindən tutub evdən çıxır, qonaq gəlmiş bəylər və məhlə sakinləri var-dövlətini götürüb öz aralarında bölüşdürürlər. II, III, IX, XI boylarda iştirak edir.

4. Deyilənə görə Bəkdüz Ənəm Peyğəmbərin üzünü görən yeganə Oğuz bəyi olmuşdur. Bu antroponimdə «bığı qanlı» pəhlivan kimi tanınırdı. Minbaşı, İç Oğuzdan Qazlıq Qoca oğlu bəg Yegnəyin dayısı, Diş (Daş) Oğuz bəyidir (13,s.8).

İslam Dininin Oğuz ellərində yayılması ilə əlaqədar olaraq Bayandırxanın məclisinə gəlmiş oğuz bəyləri hərəsi öz tapşırığını alıb odasına dönəndən sonra Əmən bəylə Xaqanın ayrıca söhbəti oldu. Dədəm Qorqudun məsləhəti ilə Əmən bəyə yeni səlahiyyətlər verildi. Bu günə qədər onun ən çox 100 əsgəri - döyüşçüsü var idisə, indii onların sayı azı 1000 nəfər olmalı idi. Bu günə qədər - 1000 başı olana qədər Əmən bəy kimi tanınırdı, bundan sonra Bin Bükdüz başları artıq Oğuzun yeni bəylər bəyi - bəylər başçısı oldu. Dədəm Qorqudun və Qazan xanın məsləhəti ilə Bayandır xan qərar verdi ki, yeni bəylər bəyinin - min başının torpaq sahələri genişləndirilməlidir: Yeddi Bayırdan - Muğana, Muğandan Savalan ətəklərinə və Təbrizə qədər. Alp Aruz onsuz da qocalıb. Alp Aruz Bayındır xanın tapşırıqlarını eşitməyə bilməzdi.

Bükdüz Əmən At ağızlı Alp Aruzun baxışlarındakı nifrəti oxuyurdu. Lakin Bin başları Bükdüz Əmən öz doğma kəndinə gəldi. Muğanda, Bolqar çayının yaşıl sahilində özünə təzə ağban ev ucaltdı, səhabəliyinə - sahibliyinə, el-oba başçısı, qoşun böyüyü olmağına, bəylər bəyliyinə başladı (13).

KDQ-da 5 boyda (II, IV, VII, VIII və XII) Bündüz Əməndən söhbət gedir.

II boyda: «Bügdüz Əmən çapar getdi: «Çal qılıcın, bəgüm Qazan, yetdim!» (D -62).

IV boyda: «Anun ardınca bin Bəkdir başları Əmən getdi» (D -151).

VII boyda: «Dayım Əmən imiş, anı bildim. ...«Oğul Yegnək, qanda gedərsən?» - dedi söylədi. Mən ayıtdım: «Düzmürd qələsinə gedərəm. Babam anda tutsaq imiş», dedim. Burada tayım mana soyladı, aydır:

*Yettügimdə yel yetməzdi*
*Yedi urğunim Yeni Bayırın qurdına bənzərdi yigitlərim.*
*Yedi kişilə qurulurdu mənim yayım!*
*Qayın talı yeləgümdən sum altunlu mənim oxım!*
*Yel əsdi yağmur yağdı, bunı qopdı,*
*Yedi qatla vardım, o qələyi alımadım,*
*görü döndüm.*
*Məndən dəxi ər qopmıyasan, Yegnəgüm, dön!* - dedi (D-207).

VIII boyda oxuyuruq: «Bığı qanlü Bəgdüz Əmən əlində (Təpəgözün əlində - Y.Q.) zəbun oldı» (D -219).

XII boyda oxuyuruq: «Taş Oğuz bəglərindən Aruz, Əmən və qalan bəglər bunı eşitdilər... (D -292).

«Əmən aydır; «Ya sən nə cavab verdin? Eyü demişsən» (D- 295).

«Mənim qırımım tərs Uzamış olsun!» (D-301).

Beləliklə, aydın oldu ki, Daş Oğuzun adlı-sanlı qəhrəmanı Bükdüz Əmən Beyrəyin ölümündə iştirak edib və bu mütləq olmalı idi. Çünki Aruzla Əmən arasında möhkəm yaxınlıq və dostluq vardır. Ancaq burada bir şey şübhə doğurur ki, Əmən müsəlman idi. O, Beyrəyin sui-qəsdinə necə razı ola bilərdi? Həmçinin artıq Daş Oğuzun səlahiyyətləri Əminə verilmişdir. Aruzun fəaliyyəti Daş Oğuzda felən formal idi. Deməli, Beyrəyin ölümündə Əmənin razılığı olub. XII boyda Aruz Qazan xanın elçisi Qılbaşa barışmamağını bildirir. Əmən isə Aruza haqq qazandırır. yuxarıda deyildiyi kimi, Əmən aydır: «Ya sən nə cavab verdin? Aruz aydır ki, «Mərə qavat,» biz Qazana düşmənuz», dedi. Əmən aydır: «Eyü demişsən» (D-295).

Bu da onun ürəkdən müsəlman olduğunu şübhə altına alır. Çünki Əmən İslam Dinin 3 təbliğatçısından biri idi. İslam həmişə sülh tərəfdarıdır, sülhü qorumaq müsəlmanın borcudur. Mənbələrin birində deyilir:

«Dədəm Qorqud, Qazan xan və Bükdüz Əmən Peyğəmbərin ziyarətinə getməklə ilk növbədə öz müqəddəs borclarını yerinə yetirmişlər. İkincisi, bu həm də dövlət əhəmiyyətli tarixi səfər olub, onun sirri də dövlət üçün, dövlətin və xalqın gələcək mənafeyi üçün mümkün qədər gizli saxlanılmalı, Oğuznamələr şəklində yayılmalı deyildir. Deməli, gedib Peyğəmbərin mübarək üzün görməyin dastanda bir cümlə ilə də xatırlamaq kifayət olub. Həmin müqəddəs tarixi səfər-ziyarət mövzusunda ayrıca «boy» yazılmayıb, qoşulmayıb.

Məşhur türk alimi Məhərrəm Erkin etibarlı mənbəə istinad edərək yazır: «Qazan xan bəylərlə gəlib Rəsulla görüşdülər. Rəsullah Dədə Qorqudu Şeyx təyin elədi». Bu səfəri və görüşü uğurla təşkil etməsi şübhəsiz Bayındır xanın böyük tarixi xidməti olmaqla, həm də onun böyük görkliyinin sübutudur» (13).

**I.4. «Kitabi-Dədə Qorqud» abidəsində Dədə Qorqud obrazı Azərbaycanda İslamın ilk inancı, ilk Şeyxi, ilk təbliğatçısı, Oğuz elinin ağsaqqalı, məsləhətçisi və ilk Ozanıdır, ilk topuz tutanıdır.**

Dədə Qorqud KDQ motivləri əsasında çəkilmiş iki seriyalı rəngli Azərbaycan bədii filmi. Abidənin bəşəri ideyaları, insani ruhu, tarixi vüsəti, fəlsəfi dərinliyi filmdə qorunub saxlanılmışdır.

KDQ-nin müqəddiməsində deyilir: «(D - 3) «Kitabi-Dədə Qorqud»da Qorqud özü bir yaradıcı kimi necə şəxsiyyətdir?

- Onun haqqında ilk məlumatı məchul ozan verir. Qorqud «soy soylayır, boy boylayır», yəni şeir qoşur, dastan söyləyir, yaxud tərənnüm və təsvir edir, lakin «Kitabi-Dədə-Qorqud»da təkcə Qorqudun «soylamaları, «boy»lar, yəni hekayələr Qorqudun deyildir, həmin məchul ozanındır ki, Qorqud da o boylarda ancaq iştirakçılardandır, obrazlardan biridir» (D - 3).

Dədə Qorqud haqqında KDQ-da deyilir: «Rəsul Əleyhissəlamın zəmanına yaqın Bayat boyından, Qorqut ata diyərlər, bir ər qopdu. Oğuzın, ol kişi tamam bilicisiydi, - nə diyərsə, olurdı. Qaibdən dürlü xəbər söylərdi. Həqtəala anın könlinə ilham edərdi... (D-2).Qorqud ata bütün boyların axırında boy boylayır, soy soylayır: ...Məndən sonra alb ozanlar söyləsin!» - deyər. Könlu cuşa gələn zaman söylədikləri də əcdad ruhlu Atalar sözləridir.

Boylara müqəddimənin elə birinci cümləsində Rəsuleyhissəlam zəmanına yaxın Bayat boyundan qopduğu söylənilir.

Dastanın boylarından göründüyü kimi Azərbaycanın hansı bölgəsində toy məclisləri, digər mədəniyyət və dövlət tədbirləri keçirilirdisə, mütləq Dədə Qorqud orada olur və mərasimin sonunda soy soylayır, söz söyləyir.

***(Davamı var)***

***Yusif QAZIYEV,***
***Pedaqogika üzrə elmlər doktoru,***
***Əməkdar müəllim***